# “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 7, maddə 778; 2014, 10, maddə 1163; 2017, 6, maddə 1027, 7, maddə 1257; Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 830-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.17-ci maddə ləğv edilsin.

2. 7.3-cü, 7.5-ci, 12.3-cü maddələrdə, 16.1-ci maddənin ikinci cümləsində, 18.3-cü maddədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum” sözləri ilə əvəz edilsin.

3. 7.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Dövlət ilkin kəmiyyət vahidləri etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinə görə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məbləğdə xidmət haqqı alınır.”.

4. 7.8-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Dövlət ilkin kəmiyyət vahidləri etalonlarının əldə olunması və saxlanılması dövlət büdcəsi hesabına həyata keçirilir.”.

5. 12.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“12.2. Ölçmə vasitələrinin yoxlanılması “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 fevral 2018-ci il
1008-VQD